## AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ GÜNÜ HAQQINDA GÖRKƏMLİ ŞƏXSLƏRİN FİKİRLƏRİ

Azərbaycanın dövlətçilik tarixində ordu qurulması, yaranması, dövləti, ölkəni qorumaq üçün qüdrətli olması həmişə diqqət mərkəzində dayanıbdır. Azərbaycan xalqı çoxəsrlik tarixində çox döyüşlərdən çıxmış, yadelli basqınlara cavab verərək, torpaqlarını qoruyaraq, qonşu xalqların, ölkələrin təcavüzünün qarşısını alaraq, yaxud da öz ərazisinin bərpasını təmin edərək çox döyüşlər etmiş, döyüşlərdən çıxmışdır. Azərbaycan xalqı tarix boyu görkəmli qəhrəmanlıq nümunələri göstərmişdir. Azərbaycan xalqının igid oğulları öz qəhrəmanlıqları ilə dastana çevrilmişlər, nəsillərdən-nəsillərə, dillərdən-dillərə keçmişlər.

***

Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır.

***

Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır.

***

Hər bir müstəqil dövlətin ordusu dövlətin əsas atributlarından biridir.

***

Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.

***

Azərbaycanın hər bir vətəndaşı mənim üçün əzizdir, amma Azərbaycan əsgəri, zabiti mənə hər bir vətəndaşdan daha əzizdir, daha yaxındır.

***

Azərbaycan Ordusu dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qarantıdır.

***Heydər Əliyev,***
***Ümummilli Lider***

Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

***

Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcək və ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir.

***

Azərbaycan Ordusu nəinki bölgədə, həm hərbi potensialına, döyüş qabiliyyətinə, təchizata görə dünya miqyasında güclü ordular sırasındadır.

***

Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır.

***

Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasındadır və bizim hərbçilərimizin peşəkarlığı, vətənpərvərliyi bütün dünyada təqdir olunur.

***

Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır. Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu ya-ratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordu-lardan biri olsun.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Tarixi çıxışlarında milli ordunun dövlətin dayağı olduğunu vurğulayaraq hərbi intizamın və vətənpərvərliyin vacibliyini ön plana çəkmişdir. Onun fəaliyyəti Azərbaycan ordusunun formalaşmasında mühüm rol oynamışdır

***Səməd bəy Mehmandarov,***
***Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri.***

Vətəni qorumaq hər bir vətəndaşın müqəddəs borcudur.

***Nəriman Nərimanov,***
***İctimai-siyasi xadim***

Hərbçi üçün ən böyük şərəf Vətənə xidmət etməkdir.

***Əliağa Şıxlinski,***
***General-leytenant***

Güclü ordu dövlətin möhkəm dayağıdır.

***Cəmşid Naxçıvanski,***
***Hərbi xadim***

Vətən sevgisi insanı qəhrəmanlığa aparan ən böyük qüvvədir.

***Ziya Bünyadov,***
***şərqşünas***

Azərbaycan Ordusu Ali Baş Komandanın istənilən əmr və tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirməyə hər an hazırdır.

***Kərim Vəliyev,***
***General-polkovnik***